HAVA LİMANININ İSTİSMARINA DAİR TƏLİMATIN İŞLƏNİB HAZIRLANMASI VƏ MƏZMUNU ÜZRƏ TƏLİMAT

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № G-AGA-004

Nəşr tarixi: 3 MAY 2021

Nəşr № 02

Bakı

DMAA

TƏSDİQ FORMASI

Nüsxələrin sayı sənədin "Yayım siyahısı" - nda göstərilməlidir və çap olunmuş nüsxələr KNvNY İdarəsinin "COPY" nişanı ilə qeydiyata alınmalıdır.

Reg. №:	G-AGA-004	**CR Reg. № :**	CR --

HAVA LİMANININ İSTİSMARINA DAİR TƏLİMATIN İŞLƏNİB HAZIRLANMASI VƏ MƏZMUNU ÜZRƏ TƏLİMAT

Qüvvəyə minir: 03.05.2021	**Nəşr.:** 02 **Rev.:** 00	**Təsdiq tarixi:** 26.04.2021

DMAA-nın rəsmisi _____
(imza)

Adı/Soyadı: Aziz Mammadov

Vəzifə: Direktor

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 MÜNDƏRICAT

0 SƏNƏDƏ NƏZARƏT və İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 3

0.3 Sənədin Yayılma Siyahısı 4

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 5

0.5 Terminlər və Tərifiər 6

0.6 Qısaldılmalar 7

0.7 Sənədə Nəzarət və İdarəedilmə 8

1 GİRİŞ 1

1.1 Ümumi 1

1.2 Məqsəd 1

1.3 Normativ Sənədlər 1

1.4 Sənədə Nəzarət və İdarəedilmə 1

2 ÜMUMİ TƏLƏBLƏR 1

3 HİSSƏLƏRİN TƏXMİNİ MƏZMUNU 1

3.1 HİSSƏ “A” – Ümumi Xarakterli Məlumat 1

3.2 HİSSƏ “B” – Hava Limaninin Məcburi Daxili Istismar Sənədlərinin Siyahisi 2

3.3 HİSSƏ “C” – Hava Limanının Xidmət Və Bölmələrinin Siyahısı 3

3.4 HİSSƏ “Ç” –Hava Limaninin Aviasiya Təhlükəsizliyinin Təmin Edilməsi 4

3.5 HİSSƏ “D” – Qəza Şəraitində Hava Limanının Hərəkətləri 4

3.6 HİSSƏ “E” – Yanğinsöndürmə və Qəza-Xilasetmə Işləri 6

3.7 HİSSƏ “Ə” – Hava Limaninin Uçuşlarin Təhlükəsizliyini Idarəetmə Sistemi (UTIS) 6

3.8 HİSSƏ “F” – Hərəkət Etmək Qabiliyyətini Itirmiş Hava Gəmisinin Uzaqlaşdirilmasi Üzrə Tədbirlər 8

3.9 HİSSƏ “G” – Ornitologiyaya Qarşi Tələblər 8

3.10 HİSSƏ “Ğ” – Hava Limaninin Məhdud Görmə Şəraitində Istismar Olunmasi 9

3.11 HİSSƏ “H” – Hava Limaninin Ərazisində Fəaliyyət Göstərən Bölmələrlə və Orqanlarla və Hava Limanina Uçuşlari Həyata Keçirən Həm Milli, həm də Xarici Ölkələrin Hava Nəqliyyatinin Istismarçilari ilə Qarşiliqli Əlaqə 9

3.12 HİSSƏ “X” - Hava Limanina Texniki Xidmətin Göstərilməsi 11

3.13 HİSSƏ “I” – Hava Limaninin Aerodromu 12

3.14 HİSSƏ “İ” – Ətraf Mühitin Mühafizəsi 12

3.15 HİSSƏ “J” – Sərnişinlərə, Baqaja, Yüklərə və Poçta Xidmət Olunmasi 13

3.16 HİSSƏ “K” – Tibbi Xidmət 13
3.17 HİSSƏ “Q” – Hava Limani Personalinin Hazirliq Siyasəti..... 13

0.2 SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	03.MAY.2021	00
2	03.MAY.2021	00
3	03.MAY.2021	00
4	03.MAY.2021	00
5	03.MAY.2021	00
6	03.MAY.2021	00
7	03.MAY.2021	00
8	03.MAY.2021	00
	Hissə 1	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	03.MAY.2021	00
2	03.MAY.2021	00
	Hissə 2	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	03.MAY.2021	00
2	03.MAY.2021	00
	Hissə 3	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Reviziya №**
1	03.MAY.2021	00
2	03.MAY.2021	00
3	03.MAY.2021	00
4	03.MAY.2021	00
5	03.MAY.2021	00
6	03.MAY.2021	00
7	03.MAY.2021	00
8	03.MAY.2021	00
9	03.MAY.2021	00
10	03.MAY.2021	00
11	03.MAY.2021	00
12	03.MAY.2021	00
13	03.MAY.2021	00
14	03.MAY.2021	00

0.3 SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirmə
Əsli	**(H)**	Keyfiyyətənəzarətvənormayaratmaİdarəsi	DMAA kitabxanası/intranet
1	**(S)**	Keyfiyyətənəzarətvənormayaratmaİdarəsi	Q-Pulse

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr./Dəy. №:	Qüvvəyə minmə tarixi:	Səbəb
Nəşr № 01	12.07.2017	
Nəşr № 02	03.05.2021	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

0.5 TERMINLƏR VƏ TƏRIFLƏR

Aerodrom - Hava gəmilərinin enməsi, qalxması və yerdə hərəkətinin üçün tam və ya qismən istifadə edilən, yaxud istifadə edilməsi nəzərdə tutulan,torpaq və su səthinin müəyyən sahəsi(hər hansı tikililər, qurğular və avadanlıq daxil olmaqla).

Aerodromun istismarına dair Təlimat – Azərbaycan Aviasiya Qaydaları - Aerodrom Standartlarına uyğun olaraq aerodrom sertifikatının alınması üçün ərizə ilə birgə təqdim edilən təlimat nəzərdə tutulur.

Aeronaviqasiya Məlumatı Xidmətləri - Aeronaviqasiya məlumatı və aeronaviqasiyanın təhlükəsizliyi, müntəzəmliyi və effektivliyinin təmin edilməsinə xidmət edən müəyyən edilmiş əhatə dairəsinin hüdudları çərçivəsində təşkil edilən xidmətlər mənasında işlədilir. Uyğun olduqda, aeronaviqasiya xidmətlərinin və onların aeronaviqasiyanın təhlükəsizliyi, müntəzəmliyi və effektivliyi üçün zəruri olan əlaqədar prosedurlarının mövcudluğuna dair məlumatları təmin etmək üçün nəzərdə tutulan işçi heyəti və vasitələri buraya daxil edilir.
Maneə - Hər hansı hərəkətsiz (müvəqqəti və ya daimi) və ya mobil obyetklər, yaxud onların hissələri, hansı ki:

a) hava gəmilərinin yerüstü hərəkəti uçub nəzərdə tutulmuş məkanda yerləşdirilib: və ya
b) uçuşda olan hava gəmilərinin qorunması üçün müəyyən edilmiş səthin üzərindir; və ya
c) müəyyən edilmiş belə səthlərdən kənarda yerləşir və qiymətləndirmənin nəticəsinə uyğun olaraq aeronaviqasiya üçün təhlükə törədir.

Səth səviyyəsində olan helikopter meydançası – Quru və ya su səthində yerləşən helikopter meydançası.

Səth səviyyəsindən hündürlükdə yerləşən helikopter meydançası – Yer səthindən hündürlüyə qaldırılmış konstruksiya üzərində yerləşən helicopter meydançası.

Uçuşun və Enməyə girişin son mərhələsinin zonası (FATO) – Sallanma və ya enmə rejiminə qədər və uçuş manevrinin başlandığı enməyə giriş manevrinin son mərhələsinin yerinə yetirildiyi müəyyən edilmiş zona.

Yerə enmə və qalxma zonası (TLOF) – Helikopterin yerə enmə və ya qalxmasını yerinə yetirə bildiyi ağırlığa davamlı meydança.

0.6 QISALDILMALAR

DMAA	Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi
AİP	Aeronaviqasiya İnformasiya Nəşri
AİS	Aeronaviqasiya İnformasiya Xidmətləri
AİT	Aeronaviqasiya İnformasiya Toplusu
FATO	Final Approach and Take-Off Areas (Uçuşun və Enməyə girişin son mərhələsinin zonası)
İCAO	Beynəlxalq Mülki Aviasiya Təşkilatı
UTİS (SMS)	Uçuşların Təhlükəsizliyin İdarəolunması sistemi
UEZ	Uçuş-enmə zolağı
SY	Sürmə yolu
TLOF	The touchdown and lift-off area (Yerlə təmas və havaya qalxma sahəsi)
HHİ	Hava Hərəkəti İdarəsi
HLİT	Hava limanının istismarı üzrə Təlimat

0.7 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDILMƏ

Bu sənəd A4 ölçüsü kağızvərəqələrdə çapedilmişdir. Elektron (PDF) fayllar isə icazə verilməmiş dəyişikliklərindən qorunmaq məqsədi ilə parolla boklanılıb.

Bu sənəd müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Bütün müvafiq işçi heyəti bütün düzəlişləri ilə tanış olmalıdır.

Bu sənəd "Sənədlərə nəzarət" prosedurun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

1 GİRİŞ

1.1 ÜMUMI

Hava limanının istismarı üzrə Təlimatın işlənib hazırlanması və məzmunu üzrə hazırkı təlimat (bundan sonra – HLİT) müvafiq hava limanının istismarı üzrə Təlimatı sənədin effektiv işlənib hazırlanması üçün hava limanları istismarçıları üçün təlimatlı bir materialdır.

1.2 MƏQSƏD

Bu Təlimatın məqsədi hava limanlarının milli istismarçılarına fərdi HLİT-in tərtib edilməsində yardım göstərilməsidir.

1.3 NORMATIV SƏNƏDLƏR

Hazırki Təlimat Azərbaycan Respublikasının “Aviasiya haqqında” Qanunun 9-cu maddəsinin icra olunması üçün işlənib hazırlanmışdır.

Bu Təlimatın hazırlanması zamanı Azərbaycan Respublikasında mülki aviasiyanın fəaliyyətini tənzimləyən milli hüquqi-normativ sənədlərdən, Beynəlxalq mülki aviasiya təşkilatının (İCAO) müvafiq Standartlarından və Tövsiyə olunan təcrübəsindən istifadə olunmuşdur.

1.4 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDILMƏ

HLİT üzrə Təlimat A4 ölçüsü kağız vərəqələrdə çap edilmişdir. Elektron (PDF) fayllar isə icazə verilməmiş dəyişikliklərindən qorunmaq məqsədi ilə parolla bloklanılıb.

Zərurət olduqda, İCAO, İATA və milli qanunvericilik və hüquqi normativ aktların tələbləri nəzərə alınmaqla, hava limanlarının istismarı üçün məcburi olan müvafiq əlavə və dəyişikliklər Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – DMAA) tərəfindən hazırkı Təlimata daxil edilə bilər.

Bütün edilmiş düzəlişlər, dəyişikliklər və əlavələr Dövlət Mülki Aviasiya Agentliyinin rəsmi internet saytında yerləşdiriləcək – www.caa.gov.az.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

2 ÜMUMİ TƏLƏBLƏR

2.1 Hava limanının sertfikatlaşdırılması prosesində istismarçıda HLİT-in olması hava limanının uyğunluq Sertifikatının verilməsi və ya etibarlılıq müddətinin uzadılması predmeti üçün əsas şərtdir. Hüquqi və fiziki şəxslərin sertifikatlaşdırılması, hava limanının uyğunluq Sertifikatının verilməsi və ya etibarlılıq müddətinin uzadılması predmeti üzrə ərizəsinə hazırkı Təlimata cavab verən HLİT olmadan DMAA tərəfindən baxılmayacaqdır.

2.2 HLİT hava limanının rəhbəri və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən razılaşdırılmalı və DMAA tərəfindən təsdiq edilməlidir.

2.3 HLİT dövlət dilində və hava limanının aviasiya personalı üçün əlverişli olan, İCAO-nun işlək dillərindən birində, aviaşirkətləri hava limanına uçuşlar həyata keçirən xarici dövlətlərin aviasiya sahiblərinə təqdim edilməsi üçün zəruri olan ayrı-ayrı hissə və bölmələri isə ingilis dilində işlənib hazırlanmalıdır.

2.4 HLİT hava limanının əsas normativ aktıdır, hansı ki, hava gəmilərinin uçub getməsinin və uçub gəlməsinin təşkili və xidməti üzrə, hava gəmilərinin hava limanının məsuliyyət zonasında uçuşlarının təhlükəsizliyinin təmin edilməsi və hava limanının ərazisində aviasiya təhlükəsizliyi üzrə hava limanı istismarçısının istismar siyasətini, qayda, təlimat və prosedurlarını ətraflı şəkildə ehtiva etməlidir.

2.5 Hava limanının hər bir istismarçısı üç nüsxədə HLİT hazırlamalıdır. HLİT-ın bir nüsxəsi Dövlət Mülki Aviasiya Agentliyinə təqdim edilməlidir. İkinci nüsxə hava limanının rəhbərində, üçüncü nüsxə isə hava limanının rəhbərinin əmri ilə təyin edilməli olan, HLİT-ə istənilən düzəliş və dəyişiklikləri etmək səlahiyyətlərinin verildiyi hava limanının məsul şəxsində olmalıdır.

2.6 HLİT mütəmadi olaraq gözdən keçirilməli və zərurət yarandığı halda, tərkibində olan məlumatların dəqiqliyinin saxlanılması üçün tamamlanmalı və dəyişdirilməlidir.

2.7 Daxili istismar qaydalarına aşağıdakı hallarda məcburi dəyişiklik və düzəlişlər edilməlidir, əgər:

2.7.1 dəyişiklik hava limanına sahib olma və ya idarə etmə nöqteyi-nəzərindən baş verərsə;

2.7.2 dəyişiklik hava limanından istifadə və ya istismar sahəsində baş verərsə;

2.7.3 hava limanının sərhədlərinin dəyişməsi baş verərsə;

2.7.4 hava limanının xarakteristikalarına konstruktiv dəyişikliklər daxil edilərsə.

2.8 HLİT-ə edilən düzəliş və dəyişikliklər, hava gəmisinin məsuliyyət zonasında hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin və aviasiya təhlükəsizliyinin təmin edilməsinə yönəldilən təcili tədbirlərin təsdiq olunmaya qədər qəbul edilməsinin vacib olduğu hallar istisna olmaqla, yalnız DMAA tərəfindən təsdiq edildikdən və ya bəyənildikdən sonra məcburi qaydada HLİT-ə daxil edilir.

2.9 Əgər düzəliş hava limanında quraşdırılan avadanlığın istehsalçısı tərəfindən xüsusi nəşrlər (direktiv, bülleten və digərləri) şəklində edilərsə, onda hava limanının rəhbərliyi zəmanət verməlidir ki, təqdim edilən dəyişikliklər rəhbərlik və icra olunma üçün düzgün və qəbul ediləndir.

2.10 HLİT-in hissə və bölmələri çap şəklində, A-4 formatında (297x210mm) olan kağızda tərtib edilməlidir.

2.11 Kağızın, çapın və illüstrasiyanın keyfiyyəti o səviyyədə olmalıdır ki, HLİT-in müvafiq hissə və bölmələrində şərh edilən materialların istənilən istismar şəraitində heç bir çətinlik olmadan oxunmasının mümkünlüyünü təmin etsin.

2.12 HLİT-də bütün operativ sənədlər 12-dən kiçik olmayan şriftlə çap edilməlidir.

2.13 Hava limanının HLİT-i aşağıdakı tərkibə malik olmalıdır:

- HİSSƏ “A” – Ümumi xarakterli məlumat;
- HİSSƏ “B” – Hava limanının məcburi daxili istismar hüquqi normativ sənədlərinin siyahısı (nüsxələr HLİT-ə əlavə edilməlidir)
- HİSSƏ “C” – Hava limanının strukturuna daxil olan xidmət və bölmələrin siyahısı;
- HİSSƏ “Ç” – Aviasiya təhlükəsizliyinin təmin edilməsi;
- HİSSƏ “D” – Qəza şəraitində hərəkətlər;
- HİSSƏ “E” – Yanğınsöndürmə və qəza-xilasetmə işləri;
- HİSSƏ “Ə” – Uçuşların təhlükəsizliyini idarəetmə sistemi (UTİS)
- HİSSƏ “F” – Hərəkət etmə qabiliyyətini itirmiş hava gəmisini uzaqlaşdırma tədbirləri;
- HİSSƏ “G” – Ornitologiyaya qarşı tələblər;
- HİSSƏ “Ğ” – Hava limanının məhdud görmə şəraitində istismar olunması;
- HİSSƏ “H” – Hava limanının ərazisində fəaliyyət göstərən bölmələrlə, orqanlarla və hava limanına uçuşları həyata keçirən həm milli, həm də xarici ölkələrin hava nəqliyyatının istismarçıları ilə qarşılıqlı əlaqə;
- HİSSƏ “X” – Hava limanına texniki xidmətin göstərilməsi;
- HİSSƏ “I” – Hava limanının aerodromu;
- HİSSƏ “İ” – Ətraf mühitin mühafizəsi;
- HİSSƏ “J” – Sərnişinlərə, baqaja, yüklərə və poçta xidmət olunması;
- HİSSƏ “K” – Tibbi xidmət;
- HİSSƏ “Q” – Hava limanı personalının hazırlıq siyasəti

3 HİSSƏLƏRİN TƏXMİNİ MƏZMUNU

Giriş

"Hüquqi-normativ aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiyasına əsasən (maddə 30, bənd 30.3), giriş hissəsi (giriş və ya preambula) həmin sənədin qəbul edilməsi səbəbləri, şərtləri və məqsədləri haqqında informasiyadan ibarət olmalıdır. Normativ tapşırıqların daxil edilməsinə yol verilmir.

3.1 HİSSƏ "A" – ÜMUMI XARAKTERLI MƏLUMAT

A-1. HLİT-in bu hissəsi aşağıdakıları əks etdirməlidir:

A-1.1. Hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin, mütəmadiliyinin və səmərəliliyinin təmin edilməsi, sərnişinlərinin hava limanının ərazisində təhlükəsizliyinin və rahatlığının təmin edilməsi barədə hava limanının rəhbərliyinin siyasəti. HLİT-in təxsis edilməsi və onun ətrafındakı sualların əhatə dairəsi;

A-1.2. Rəhbər əməkdaşlar, o cümlədən onların vəzifə borcları göstərilməklə, hava limanının təşkilati strukturu;

A-1.3. Hava limanının ərazisində yerləşən bina və tikililərin siyahısı:

A-1.4. Aeronaviqasiya İnformasiya Mərkəzinə (AİM) ötürülməli olan hava limanına dair məlumatlar:

A-1.4.1. hava limanının adı;

A-1.4.2. hava limanının yerləşdiyi yer;

A-1.4.3. Hava limanı üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) kodu və Aerodromun istinad kodu;

A-1.4.4. Ümumdünya geodeziya sisteminin geodeziya koordinatları sistemində müəyyən edilən hava limanının kontrol nöqtəsinin coğrafi koordinatları –1984 (WGS-84);

A-1.4.5. hava limanının ərazisində havanın hesablanmış hərarəti;

A-1.4.6. Aerodromun elementləri haqqında bütün məlumatlar və digər informasiya göstərilməklə, uçuşların təşkili üzrə Təlimat əsasında tərtib edilən aerodromun aeronaviqasiya pasportu (HLAP);

A-1.4.7. Uçub getmə və enməyə daxil olma sxemləri;

A-1.4.8. Hava limanının maneələr sxemi;

A-2. Bu hissəyə aşağıda adları çəkilən sənədləri, habelə aşağıdakı informasiyanı daxil etmək lazımdır:

A-2.1. Hava limanının nizamnaməsi;

A-2.2. Hava limanının sərhədləri göstərilən baş planı;

A-2.3. Beynəlxalq hava limanları üçün beynəlxalq hava limanı statusunun verilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı;

A-2.4. Yerli hava xətləri üçün hava limanının istismara Dövlət qəbulu haqqında Akt.

A-2.5. Hava limanının iş saatı, müəyyən edilən məhdudiyyətlər və icazələr (əgər beləsi varsa);

A-2.6. Hesablanmış (layihə) illik sərnişin və yük dövriyyəsi və faktiki illik orta dövriyyə;

A-2.7. Sərnişinlərin rahatlığının yüksəldilməsi üçün hava limanında yaradılan şəraitlər (fəaliyyət qabiliyyəti olmayan sərnişinlərə və məhdud imkanlara malik olan sərnişinlərə xidmət göstərilməsi nöqteyi-nəzərindən, ana və uşaq otaqları).

A-3. HLİT-in bu hissəsinə hava limanı xidmətlərinin və hava limanında müstəqil fəaliyyət göstərən bölmələrin uyğunluq Sertifikatlarının surətləri, məhz aşağıdakılar əlavə edilməlidir:

A-3.1. Aerodromun istismara yararlılığı haqqında sertifikat;

A-3.2. Uçuşların elektrik-işıq təminatı üzrə uyğunluq sertifikatı;

A-3.3. Radiotexniki təminat və aviasiya elektrik rabitəsi üzrə uyğunluq sertifikatı;

A-3.4. Uçuşların meteoroloji təminatı üzrə uyğunluq sertifikatı;

A-3.5. Hava hərəkətinə xidmət orqanının uyğunluq sertifikatı (aerodrom və yerlə sürmə);

A-3.6. Hava daşımalarının aviasiya yanacağı ilə təmin edilməsi üzrə uyğunluq sertifikatı;

A-3.7. Aviasiya sürtkü-yağlama materiallarının keyfiyyətinə nəzarəti həyata keçirən laboratoriyaların uyğunluq sertifikatı;

A-3.8. Hava gəmilərinə texniki xidmət orqanının uyğunluq sertifikatı;

A-3.9. Aviasiya təhlükəsizliyini təminat orqanının sertifikatı;

A-3.10. Sərnişinlərin, baqajın, poçtun və yüklərin yerüstü xidmət orqanının sertifikatı;

A-3.11. Uçuşların aeronaviqasiya təminatını təmin edən orqanın uyğunluq sertifikatı;

A-3.12. Axtarış və qəza-xilasetmə təminat orqanının uyğunluq sertifikatı;

A-3.13. Uçuşların meteoroloji təminat orqanının uyğunluq sertifikatı.

A-3.14. Bu hissəyə hava limanının ərazisində fəaliyyət göstərən bütün təşkilatların siyahısını, o cümlədən aviadaşımalara xidmət üzrə müstəqil agentlikləri daxil etmək lazımdır.

3.2 HİSSƏ "B" – HAVA LIMANININ MƏCBURI DAXILI ISTISMAR SƏNƏDLƏRININ SIYAHISI

B-1. Hər bir hava limanında mülki aviasiya sahəsində DMAA tərəfindən qəbul edilmiş milli qanunvericilik və hüquqi normativ aktların tələbləri nəzərə alınmaqla işlənib hazırlanmış və təsdiq edilmiş daxili istismar sənədlərə (qaydalara, təlimatlara və prosedurlara) malik olmalıdır;

B-2. Hər bir hava limanında aşağıdakı sənədlər (qaydalar, təlimatlar, prosedurlar və sair) olmalıdır:

B-2.1. Hava limanının istismarına dair təlimat (HLİT);

B-2.2. Aerodromun istismarına dair təlimat (AİT);

B-2.3. Hava limanına texniki xidmət göstərilməsinə dair təlimat (HLTXT);

B-2.4. Uçuşların təhlükəsizliyini idarəetmə sistemlərinə dair təlimat (UTİST);

B-2.5. Hava limanının ornitologiyasına dair təlimat;

B-2.6. Aviasiya təhlükəsizliyi proqramı;

B-2.7. Yanğınsöndürmə və qəza-xilasetmə işləri üzrə operativ Plan;

B-2.8. Qəza hallarında hava limanının tədbirləri;

B-2.9. İş meydançasında hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərinin uzaqlaşdırılması üzrə hava limanının tədbirləri;

B-2.10. Personalın hazırlıq proqramı;

B-2.11. Məhdud görmə şəraitində hava limanının istismarı üzrə tələblər (nizamnamə, qaydalar).

B-2.12. Xüsusi nəqliyyatın istismarına dair tələblər (nizamnamə, qaydalar);

B-2.13. Hava limanının ərazisində fəaliyyət göstərən bölmələrlə, orqanlarla, xidmətlərlə və daimi bazası sayılan, həm də hava limanına uçuşları həyata keçirən xarici ölkələrin hava nəqliyyatının istismarçıları ilə qarşılıqlı əlaqə üzrə müvafiq müqavilələr (Sazişlər).

3.3 HİSSƏ "C" – HAVA LİMANININ XİDMƏT VƏ BÖLMƏLƏRİNİN SİYAHISI

C-1. Bu hissədə hava limanının strukturuna daxil olan bütün xidmət və bölmələri sadalamaq lazımdır. Hava limanının Xidmətlərinə aşağıdakılar daxildir:

- aerodrom xidməti;
- hava hərəkəti xidməti;
- aeronaviqasiya informasiyası;
- uçuşların meteoroloji təminatı;
- daşımaların təşkil edilməsi;
- sərnişinlərə, baqaja, yüklərə və poçta xidmət olunması;
- sürtkü-yağlama materialları;
- aviasiya təhlükəsizliyi və yanğından mühafizə təminatı;
- axtarış və qəza-xilasetmə təminatı;
- Brifinq;
- xüsusi nəqliyyat;
- uçuşların elektrik-işıq texniki təminatı;
- uçuşların və aviasiya elektrik rabitəsinin radiotexnika təminatı;
- texnoloji avadanlığın istismarı və təmiri;
- uçuşların istilik texniki və santexniki xidmət üzrə;
- AİS (texnoloji informasiya);
- rabitə;
- uçuşların tibbi təminatı;
- bort qidasının təşkil edilməsi.

3.4 HİSSƏ "Ç" –HAVA LIMANININ AVIASIYA TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI

Ç-1. "Aviasiya haqqında" Azərbaycan Respublika Qanununun 49.2-ci maddəsinə uyğun olaraq hava limanında aviasiya təhlükəsizliyi Proqramının olması hava limanına uyğunluq sertifikatı verilən zaman irəli sürülən əsas tələblərdən biridir. Bu proqram aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə hava limanının siyasətini, qaydalarını, təlimatlarını və prosedurlarını ətraflı şəkildə əhatə etməlidir.

Ç-2. Hava limanının aviasiya təhlükəsizliyi DMAA Tələblərinə uyğun olaraq işlənib hazırlanmalıdır (Hava limanının aviasiya təhlükəsizlik Proqramının işlənib hazırlanması və saxlanılması üzrə təlimat, DMAA tərəfindən təsdiq edilmişdir, 5 yanvar 2016-cı il tarixli 1 №-li əmr).

3.5 HİSSƏ "D" – QƏZA ŞƏRAİTİNDƏ HAVA LİMANININ HƏRƏKƏTLƏRİ

D-1. Qəza şəraiti hava limanının ərazisində, həm də onun hüdudlarından kənarda fövqəladə halların yaranmasının mümkünlüyünü özündə əks etdirir.
Bu məqsədlə hər bir hava limanı "*Qəza şəraitində hava limanının tədbirləri*"-nə malik olmalıdır. Bu Tədbirlərdə qəza şəraitinin mümkün olan hər bir halında hava limanının ətraflı hərəkətləri göstərilmişdir.

D-2. Qəza şəraitinin aşağıdakı müxtəlif tipləri baş verə bilər:

D-2.0.1. hava gəmiləri ilə qəza şəraitləri;

D-2.0.2. hava gəmilərinə aidiyyəti olmayan qəza şəraitləri;

D-2.0.3. tibbi yardım tələb edən qəza şəraitləri və ya bu qəza şəraitlərinin əlaqələnməsi.

D-2.1. Hava gəmiləri ilə qəza şəraitlərinə aşağıdakılar daxildir:

D-2.1.1. hava limanında aviasiya hadisələri;

D-2.1.2. hava limanının hüdudlarından kənarda aviasiya hadisələri:

D-2.1.2.1. quruda,

D-2.1.2.2. suda;

D-2.2. hava gəmisi ilə yerdə insident;

D-2.3. diversiya ilə bağlı insident, o cümlədən partlayıcı maddələrdə istifadə təhlükəsi;

D-2.4. qanunsuz zəbt etmə ilə bağlı insident.

D-3. Hava gəmilərinə aidiyyəti olmayan qəza şəraitləri aşağıdakıları əhatə edir:

D-3.1. binalarda yanğınlar;

D-3.2. diversiyalar, o cümlədən partlayıcı maddələrdə istifadə təhlükəsi;

D-3.3. təbiət hadisələri;

D-3.4. təhlükəli yüklərlə bağlı olan hadisələr;

D-3.5. tibbi yardımın göstərilməsini tələb edən hadisələr.

D-4. Aşağıdakıların cəlb edildiyi əlaqəli qəza şəraitləri:

D-4.1. hava gəmisi – bina;

D-4.2. hava gəmisi – yanacağın doldurulması üçün avadanlıq;

D-4.3. hava gəmisi – hava gəmisi.

D-5. Hava limanının qəza şəraiti üçün Tədbirlərinin məqsədi aşağıdakıların təmin edilməsindən ibarətdir:

D-5.1. normal fəaliyyətdən qəza-xilasetmə əməliyyatlarının aparılmasına nizamlı və səmərəli keçid;

D-5.2. hava limanında qəza şəraiti müddətinə rəhbər orqanın təyin edilməsi;

D-5.3. qəza şəraitində vəzifələrin bölüşdürülməsi;

D-5.4. zərurət olduğu halda, tədbirlər Planında olan tələblərin həyata keçirilməsi üçün DMAA-nın icazəsinin alınması;

D-5.5. qəza şəraitinin nəticələrinin aradan qaldırılması üzrə hərəkətlərin koordinasiyası; və

D-5.6. hava gəmilərinin uçuşlarının təhlükəsiz şəkildə davam etdirilməsi.

D-6. Hava limanının qəza şəraiti üçün Tədbirlərində aşağıdakı bölmələr şərh edilməlidir:

D-6.1. Ümumi müddəalar*;*

D-6.2. Məsuliyyət:

D-6.3. Qəza şəraitlərinin tipləri;

D-6.4. Qəza-xilasetmə tədbirlərində iştirak edən orqanlar;

D-6.5. Müxtəlif qəza şəraitində hər bir orqanın məsuliyyəti və rolu;

D-6.6. Qəza-operativ mərkəz və səyyar komanda məntəqəsi;

D-6.7. Tədbirlərin icrasına görə məsul rəhbər və koordinator;

D-6.8. Dördbucaqlı koordinat sistemində hava limanının xəritəsi;

D-6.9. Xəbərdar edilməli olan xidmətlər haqqında məlumatlar;

D-6.10. Zərərçəkənlərin çeşidlənməsi və onlara tibbi qayğının göstərilməsi;

D-6.11. Sağ qalmış və hərəkət etmək qabiliyyətində olan şəxslərə qayğı göstərilməsi;

D-6.12. Həlak olanların emal edilməsi (qara xəritə);

D-6.13. Rabitə;

D-6.14. Hava limanında qəza şəraiti üçün hərəkətlərin məşq edilməsi;

D-6.15. Hava limanında qəza şəraiti üçün Tədbirlər Planına yenidən baxılması;

D-6.16. Hadisədən sonrakı hərəkətlərin təhlili.

Qeyd: *Qəza şəraiti üçün Tədbirlər Planını işləyib hazırlayan zaman hava limanına aid olan hissəsində DMAA-nın "Qəza şəraiti yarandıqda Azərbaycan Respublikasının hava limanlarının fəaliyyətinə dair Təlimat (G-AGA-010)" sənədinə əsaslanmaq lazımdır. Bu təlimat materialını DMAA-nın http//www.caa.gov.az saytından əldə etmək olar.*

3.6 HİSSƏ "E" – YANĞINSÖNDÜRMƏ VƏ QƏZA-XILASETMƏ İŞLƏRI

E-1. Yanğın baş verdiyi halda hava limanının əsas vəzifəsi insanların həyatının xilas edilməsi, ziyanın vurulmasının azaldılması, əmlakın, binaların və tikililərin qorunub saxlanılmasıdır.

E-2. Hər bir hava limanının aşağıdakılardan ibarət olan yanğınsöndürmə və qəza-xilasetmə işləri üzrə Operativ Planı olmalıdır:

E-2.1. hava limanında mövcud olan müdafiənin səviyyəsi haqqında məlumatlar;

E-2.2. xilasetmə və yanğınsöndürmə sahəsində irəli sürülən tələblərə uyğunluq nöqteyi-nəzərindən vasitələr, avadanlıq, personal və prosedurlar haqqında məlumatlar, o cümlədən hava limanında qəza-xilasetmə və yanğınsöndürmə xidmətlərinin fəaliyyətinə görə məsuliyyət daşıyan şəxslərin adları və funksiyaları;

E-2.3. böhranlı zonanın konsepsiyaları və yanğınsöndürmə vasitələrinin sayı;

E-2.4. qəza-xilasetmə və yanğınsöndürmə Xidmətinin istifadə etdiyi nəqliyyat vasitələrinin texniki xarakteristikaları haqqında informasiya;

E-2.5. yanğınsöndürən maddələrin xarakteristikası haqqında informasiya;

E-2.6. yanğınsöndürmə stansiyalarının yerləşməsi haqqında məlumatlar;

E-2.7. qəza vəziyyətində hərəkət qaydası;

E-2.8. hava limanında hadisələr zamanı işıqlandırma və rabitə sxemləri;

E-2.9. yanacaq və yağ çənləri, habelə qəza çıxışları göstərilməklə, hava gəmilərin sxemləri;

E-2.10. qəzasonrası, şassi, güc qurğularının, dağılmış yanacağın və sərnişin salonunun daxilində yanğınların söndürülmə sxemləri.

Qeyd: *Qəzalı vəziyyət üçün Tədbirlər Planını işləyib hazırlayan zaman hava limanına aid olan hissəsində DMAA-nın "Xilasetmə və yanğınla mübarizə üzrə Təlimat" (G-AGA-011) sənədinə əsaslanmaq lazımdır. Bu təlimat materialını DMAA-nın http//www.caa.gov.az saytından əldə etmək olar.*

3.7 HİSSƏ "Ə" – HAVA LIMANININ UÇUŞLARIN TƏHLÜKƏSIZLIYINI IDARƏETMƏ SISTEMI (UTIS)

Ə-1. Azərbaycan Respublikasının hava limanlarında Uçuşların Təhlükəsizliyini İdarəetmə Sistemi üzrə Təlimat (UTİST) Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu il tarixli 756 nömrəli Fərmanının 3.1.3-cü bəndi ilə müəyyən edilmiş "Uçuşların Təhlükəsizliyinin təmin edilməsi Qaydası"na uyğun olaraq, habelə uçuşların təhlükəsizliyi sahəsində DMAA tərəfindən təsdiq edilmiş qüvvədə olan aviasiya qaydalarına uyğun olaraq hazırlanmalıdır.

Ə-2. Hava limanının UTİST əsas elementləri aşağıdakılar olan uçuşların təhlükəsizliyinin təmin edilməsi sistemi haqqında məlumatları əhatə etməlidir:

Ə-2.1. Uçuşların təhlükəsizliyinin təmin edilməsinin siyasəti və məqsədləri:

Ə-2.1.1. hava limanının ərazisində mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi üzrə hava limanının rəhbərliyinin siyasəti;

Ə-2.1.2. təhlükəsizlik sahəsində siyasət təhlükəsizliyinin təmin edilməsi prosesinə tətbiq ediləndir və onun istismar və texniki xidmət prosesləri ilə qarşılıqlı əlaqəsi;

Ə-2.1.3. Hava limanı ərazisində uçuşların təhlükəsizliyinin təmin edilməsinə sistemli yanaşmanın əldə edilməsi üzrə hava limanında uçuşların təhlükəsizliyinin təmin edilməsinin məqsədləri, təhlükəsizliyin təmin edilməsinin əsas konsepsiyasının və yardımçı prinsiplərin işlənib hazırlanması, istismar prosedurlarının razılaşdırılması və tətbiq edilməsi və hava limanında gündəlik istismar fəaliyyətinə sistemli şəkildə nəzarət olunması;

Ə-2.1.4. Hava limanında uçuşların təhlükəsizliyinə görə məsuliyyət;

Ə-2.1.5. hava limanında uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə müəyyən edilmiş milli tələblərə əməl edilməsinə nəzarət;

Ə-2.1.6. hava limanında uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə DMAA tələblərinin tətbiq edilməsinə görə məsul əməkdaşın vəzifələri;

Ə-2.1.7. hava limanının ərazisində qəza halları üçün tədbirlərin planlaşdırılmasının koordinasiyası;

Ə-2.2. Riskin qiymətləndirilməsi və azaldılması:

Ə-2.2.1. təhlükə faktorlarının müəyyən edilməsi və onun ciddilik dərəcəsinin qiymətləndirilməsi;

Ə-2.2.2. hadisələrin ciddiliyinin təsnifat sxemi;

Ə-2.2.3. riskin təsnifat sxemi;

Ə-2.2.4. aviasiya hadisəsi riskinin yüksəlməsinə səbəb olan faktorlar;

Ə-2.2.5. risk dərəcəsinin azaldılmasına yönəldilən hərəkətlər;

Ə-2.3. Hava limanlarının istismarı zamanı uçuşların təhlükəsizliyi ilə bağlı olan, çatdırılmalı və təhlil edilməli olan hadisələr:

Ə-2.3.1. aviasiya hadisələri;

Ə-2.3.2. insidentlər;

Ə-2.3.3. toplanmalı və saxlanmalı olan məlumatlar;

Ə-2.3.4. qiymətləndirmənin və ya araşdırmanın saxlanılmalı olan nəticələri;

Ə-2.3.5. illik hesabatın minimal məzmununa qarşı tələblər;

Ə-2.3.6. aviasiya hadisələrinin və insidentlərinin araşdırılması.

3.8 HİSSƏ "F" – HƏRƏKƏT ETMƏK QABILIYYƏTINI ITIRMIŞ HAVA GƏMISININ UZAQLAŞDIRILMASI ÜZRƏ TƏDBIRLƏR

F-1. Hava limanının iş meydançasında hərəkət etmək qabiliyyətini itirmiş hava gəmisinin uzaqlaşdırılması üzrə məlumatlar "İş meydançasında hərəkət etmək qabiliyyətini itirmiş hava gəmisinin uzaqlaşdırılması üzrə hava limanının tədbirlərində" göstərilməlidir. Tədbirlərdə hava limanının aerodromuna uçuşları həyata keçirən hava gəmilərinin bütün tipləri, habelə uçuş istismarı üzrə Təlimatda (UİT) göstərilən hava gəmisinin istehsalçısının tələbləri nəzərə alınmalıdır.

F-2. Qəza halları üçün hava limanının Tədbirlərində aşağıdakı bölmələr açıqlanmalıdır:

F-2.1. Ümumi müddəalar;

F-2.2. Məsuliyyət;

F-2.3. Hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərinin uzaqlaşdırılması üzrə Tədbirlər;

F-2.4. Əsas məsul tərəflərin tələb etdiyi hərəkətlər;

F-2.5. Hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərini uzaqlaşdırma prosedurları;

F-2.6. Hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərini uzaqlaşdırma üsulları;

F-2.7. Yanacağın axıdılması;

F-2.8. Avadanlıq;

F-2.9. Hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərinin uzaqlaşdırılması üçün avadanlıqdan istifadə olunması.

Qeyd: *Qəza şəraiti üçün Tədbirlər Planı DMAA-nın "Hərəkət qabiliyyətini itirmiş hava gəmisinin uzaqlaşdırılmasına dair Təlimat (G-AGA-009)" sənədi əsasında hazırlanmalıdır. Bu təlimat materialını DMAA-nın http//www.caa.gov.az saytından əldə etmək olar.*

3.9 HİSSƏ "G" – ORNITOLOGIYAYA QARŞI TƏLƏBLƏR

G-1. Bu fəsil hava gəmilərinin istismarı üçün potensial təhlükə daşıyan quşların və ya uçuş zamanı və ya iç meydançasında hava gəmilərinin hərəkət xəttində məməlilərin olmasının yaratdığı təhlükə ilə mübarizə üzrə prosedurlar haqqında məlumatları, habelə aşağıdakılar haqqında informasiyanı əhatə etməlidir:

G-1.1. canlı təbiətin yaratdığı təhlükənin qiymətləndirilməsi üzrə tədbirlər;

G-1.2. canlı təbiətin yaratdığı təhlükə ilə mübarizə proqramının həyata keçirilməsi üzrə tədbirlər (hava gəmilərinin istismarı üçün potensial təhlükə yaradan quşların sayının azaldılması, quşların tipi, onların aerodrom zonasında və ya onun hüdudlarından kənarda hava gəmilərinin havaya qalxma və enmə istiqamətlərində miqrasiyasının istiqaməti haqqında məlumatlar);

G-1.3. hava limanının ərazisində və onun ətraflarında zibilxanaların yaranmasına yol verilməməsi üzrə tədbirlər;

G-1.4. bu sahədə işlərin görülməsinə məsuliyyət daşıyan şəxslərin soyadları və funksiyaları, habelə onlarla iş vaxtı və ya qeyri-iş vaxtı əlaqə saxlamaq üçün telefon nömrələri.

Qeyd: *Ornitologiya üzrə Təlimatı işləyib hazırlayan zaman DMAA-nın "Hava Limanı ərazisində vəhşi təbiətin yaratdığı təhlükənin azaldılması metodlarına dair Təlimat (G-AGA-001)" sənədinə əsaslanmaq lazımdır. Bu təlimat materialını DMAA-nın http//www.caa.gov.az saytından əldə etmək olar.*

3.10 HİSSƏ "Ğ" – HAVA LIMANININ MƏHDUD GÖRMƏ ŞƏRAITINDƏ ISTISMAR OLUNMASI

Ğ-1. Bu hissə aşağıdakılardan ibarət olmalıdır:

Ğ-1.1. hava limanı məhdud görmə şəraitində istismar olunduğu halda tətbiq edilməli olan prosedurlar haqqında məlumatlar;

Ğ-1.2. məhdud görmə şəraitində uçuşların təmin edilməsi zamanı məsuliyyət;

Ğ-1.3. hava limanı məhdud görmə şəraitində istismar olunduğu halda tətbiq edilməli olan təhlükəsizlik tədbirləri;

Ğ-1.4. məhdud görmə şəraitində uçuşlar üçün zəruri olan vizual aeronaviqasiya vasitələri.

Ğ-2. Hava limanının məhdud görmə şəraitində istismar olunmasına dair məlumatlar "Hava limanının məhdud görmə şəraitində istismar olunmasına dair təlimat"da göstərilməlidir.

3.11 HİSSƏ "H" – HAVA LIMANININ ƏRAZISINDƏ FƏALIYYƏT GÖSTƏRƏN BÖLMƏLƏRLƏ VƏ ORQANLARLA VƏ HAVA LIMANINA UÇUŞLARI HƏYATA KEÇIRƏN HƏM MILLI, HƏM DƏ XARICI ÖLKƏLƏRIN HAVA NƏQLIYYATININ ISTISMARÇILARI ILƏ QARŞILIQLI ƏLAQƏ

H-1. Bu hissə hava limanının ərazisində fəaliyyət göstərən bölmələrlə, orqanlarla və hava limanına uçuşları həyata keçirən həm milli, həm də xarici ölkələrin hava nəqliyyatının istismarçıları ilə qarşılıqlı əlaqə haqqında informasiyanı ehtiva etməlidir. Bu hissəyə hava limanının ərazisində fəaliyyət göstərən bölmələrlə, orqanlarla və hava limanına uçuşları həyata keçirən həm milli, həm də xarici ölkələrin hava nəqliyyatının istismarçıları ilə qarşılıqlı əlaqə haqqında Sazişlərin surətləri əlavə edilməlidir.

H-1.2. Qeyd edilməlidir ki, hava limanının istismarçısı müvafiq bildiriş və hesabatların DMAA və HHX orqanına müvafiq müddətlərdə verilməsi barədə tələblərə əməl etməlidir:

H-1.2.1. AİM tərəfindən Aeronaviqasiya İnformasiya Toplusunda (AİT) hava limanı ilə bağlı qeyri-dəqiqliklər haqqında dərc edilən bildiriş.

H-1.2.2. hava limanı vasitələrinə və avadanlığına və ya hava limanında xidmət səviyyəsinə aid planlaşdırılan dəyişikliklər haqqında və çox güman ki, AİT-də olan informasiyanın dəqiqliyinə təsir göstərəcək bildiriş.

Bu bildiriş tətbiq edilənə iki ay qalmış yazılı surətdə DMAA və ya AİM-də aparılır.

H-1.2.3. AİM-in ona məlum olan, aşağıda göstərilən hallardan istənilən birinə aid olan məlumatların ətraflı ifadə edildiyi təcili bildirişi və bu bildirişin HHİ və HHX orqanları tərəfindən dərhal alınması üçün tədbirlərin görülməsi:

H-1.2.3.1. əngəl, maneə və təhlükələr cəhətdən:

H-1.2.3.1.1. həmin hava limanına aid olan məhdudiyyət maneələrinin səthi üzərində istənilən obyektin yüksəlməsi;

H-1.2.3.1.2. hava limanında və ya onun yaxınlığında uçuşların təhlükəsizliyinə təsir edən hər hansı maneənin və ya təhlükəli şəraitin olması;

H-1.2.3.2. xidmət səviyyəsi cəhətdən – AİM-in istənilən nəşrində göstərilən hava limanında xidmət səviyyəsinin aşağı düşməsi;

H-1.2.3.3. iş meydançası cəhətdən – aerodromun iş meydançasının istənilən hissəsinin bağlanması;

H-1.2.3.4. hava limanında uçuşların təhlükəsizliyinə təsir göstərə biləcək və barəsində ehtiyat tədbirləri görülən istənilən digər şərtlər.

H-1.3. Qeyd edilməlidir ki, HHİ və HHX orqanlarının hazırkı Tələblərin **H-1.2.2.** bəndində adı çəkilən hallar barəsində təcili bildiriş alması üçün hava limanının istismarçısına tədbir görmək imkanının verilmədiyi hallarda, istismarçı belə hallar haqqında yubanmadan aerodromun uçuş rəhbərini (AUR), AUR isə öz növbəsində fəaliyyətlərinə təsir göstərə biləcək hava gəmisi heyətlərini operativ şəkildə xəbərdar etməlidir.

H-1.4. HHX orqanı ilə qarşılıqlı əlaqənin təşkil edilməsi nəzərdə tutur ki, hava limanının bütün Xidmətləri aerodromda işləri yalnız AUR icazəsi ilə, onların aparılmasını Hava limanının Aerodrom Xidmətinin (HLAX) məsul şəxsi ilə razılaşdırdıqdan sonra, bu işləri yerinə yetirən HLAX-nın məsul işçilərinin rəhbərliyi altında yerinə yetirirlər. İşlərin aparılacağı günün ərəfəsində icrasının vaxtla uyğunlaşdırılması üçün işlərin xarakteri, aparılma yeri və vaxtı HLAX-a bildirilir.

H-1.5. Hava limanının Hava Hərəkəti İdarəsi (HHİ) ilə qarşılıqlı əlaqəsi uçuş Qaydalarının müddəaları, UEZ-ə baxış qaydasını və aerodromda işlərin aparılmasını müəyyən edən əmr və sərəncamlar əsasında, uçuşların təmin edilməsi üzrə vəzifəli şəxslərin və profilaktik işləri həyata keçirən xidmətlərin hərəkətləri əsasında qurulmalıdır.

H-1.6. HLAX:

H-1.6.1. aerodromun istismara hazır olması barədə informasiyanı HHİ-ə ötürməlidir;

H-1.6.2. perronda və aerodromun manevr meydançasında məhdudiyyətlərin olması barədə AUR-u məlumatlandırmalıdır;

H-1.6.3. UEZ (qoşqu əmsalı, UEZ-də yağıntıların olması və qalınlığı və sair), YSY vəziyyəti haqqında düzgün informasiyanı vaxtlı-vaxtında çatdırmalıdır;

H-1.6.4. aerodromun iş meydançasında planlaşdırılmış işlərin yerinə yetirilməsini, habelə bu işlərin başlanma və başa çatma vaxtlarını xəbər verməli və razılaşdırmalıdır;

H-1.6.5. uçuş meydanında iş görülən zaman radiorabitə qaydasını dəqiqləşdirməlidir;

H-1.6.6. işlər başa çatdıqda həmin ərazinin istismara hazır olması barədə AUR-a məruzə etməlidir.

H-1.6.7. iş görülən zaman hər 15 dəqiqədən bir HHİ-nin dispetçeri ilə kontrol radiorabitə yaratmalıdır;

H-1.6.8. radiorabitə imtina etdiyi halda dərhal texnikanı uçuş zolağından çıxarmalı və HHİ-ə məlumat verməlidir. İşlərin sonradan davam etdirilməsini və dayandırılmasını AUR ilə razılaşdırmalıdır;

H-1.6.9. AUR və ya aerodromun HHX dispetçerinin tələbi ilə UEZ-də və radiomayak sistemlərinin (RMS) böhranlı zonalarında işləyən xüsusi texnikanın dərhal onların hüdudlarından kənara çıxarılmasını təmin etməlidir.

H-1.7. Milli mənsubiyyətindən asılı olmayaraq hava nəqliyyatının istismarçıları ilə qarşılıqlı əlaqə aviaşirkətlərin qəza şəraiti üçün və aerodromun iş meydançasında hərəkət etmək qabiliyyətini itirmiş hava gəmilərinin uzaqlaşdırılması üçün tədbirlər planlarının hava limanının rəhbərliyi ilə mütləq razılaşdırılmasını nəzərdə tutmalıdır.

3.12 HİSSƏ "X" - HAVA LIMANINA TEXNIKI XIDMƏTIN GÖSTƏRILMƏSI

X-1. Hava limanının iş meydançasının saxlanılması onun texniki vəziyyətinə və HG-nin müntəzəm və təhlükəsiz istismarı üçün hazırlığının təmin edilməsinə sistemli nəzarətdən ibarətdir.

X-2. Hava limanına texniki xidmətin göstərilməsinə dair informasiya "Hava limanına texniki xidmətə dair təlimatda" göstərilməlidir.

X-3. Texniki xidmətə dair Təlimatda aşağıdakı fəsillər şərh edilməlidir:

X-3.1. Ümumi müddəalar;

X-3.2. Hava limanının direktor müavininin, xidmət rəhbərlərinin və personalının vəzifələri;

X-3.3. Texniki xidmətin təşkil edilməsi;

X-3.4. Vizual vasitələrə texniki xidmətin göstərilməsi;

X-3.5. Hava limanının elektrik sistemlərinə texniki xidmətin göstərilməsi;

X-3.6. Örtüyün istismara yararlı vəziyyətdə saxlanılması;

X-3.7. Drenaj;

X-3.8. Süni örtüyü olmayan ərazilərin istismara yararlı vəziyyətdə saxlanılması;

X-3.9. Hava gəmilərinin uzaqlaşdırılması;

X-3.10. Nəqliyyat vasitələrinə texniki xidmətin göstərilməsi;

X-3.11. Binalar.

Qeyd: Hava limanına TX üzrə Təlimat hazırlanan zaman hava limanına aid olan hissəsində DMAA-nın "Səth örtüyünün vəziyyətinə dair Təlimat (G-AGA-012)" və "Hava Limanlarına Texniki xidmət göstərilməsinə dair Təlimat (G-AGA-003)" sənədlərinə əsaslanmaq lazımdır. Bu təlimat materiallarını DMAA-nın http//www.caa.gov.az saytından əldə etmək olar.

3.13 HİSSƏ "I" – HAVA LIMANININ AERODROMU

I-1. Hava limanının aerodromu hissəsi Azərbaycan Aviasiya Qaydaları - Aerodrom Standartları sənədinin "F" Qoşmasına uyğun olaraq tərtib edilən Aerodromun istismarına dair Təlimatda (AİT) əks olunmalı olan milli aviasiya qaydalarının tələblərinə uyğun olmalıdır.

I-2. Helikopter meydançaları üçün isə aşağıda qeyd olunan məlumatlar "AERODROMUN AERONAVİQASİYA İNFORMASİYA MƏRKƏZİNƏ (AIS) BİLDİRİLMƏLİ OLAN XÜSUSİYYƏTLƏRİ" hissəsinə əlavə olunmalıdır:

I-2.1. Helikopter meydançasının yeri: səth səviyyəsində; səthdən qaldırılmış; platforma və ya gəmi üzərində;

I-2.2. Yerə enmə və qalxma zonası, səthin metrə qədər dəqiqliklə ölçüləri, növü, mailliyi, tonlarla aparıcı qabiliyyəti;

I-2.3. Enməyə girişin son mərhələsinin və uçuş zonasının növü: FATO-nun növü, yüzdə bir dərəcəyə qədər dəqiqliklə həqiqi pelenq, işarə nömrəsi (əgər nəzərdə tutulursa), metrə qədər dəqiqliklə uzunluğu, eni, səthin növü və mailliyi;

I-2.4. Təhlükəsizlik zonası: səthin uzunluğu, eni və növü;

I-2.5. Yerüstü sürmə yolu, havada sürmə yolu və havada hərəkət etmək üçün marşrut: adı, eni, səthin növü;

I-2.6. Enməyə giriş sxemləri üçün visual vasitələr, FATO, TLOF, SY və peronların işarələnməsi və işıqları;

I-2.7. Cihazlar üzrə enmə sistemini (ILS) təşkil edən istiqamət və qlissada radiomayaklarının və ya mikrodalğalı enmə sisteminin (MLS) azimutlu və bucaqyerli antenaların və TLOF və ya FATO-nun müvafiq kənarları arasında metrə qədər dəqiqliklə məsafə.

3.14 HİSSƏ "İ" – ƏTRAF MÜHITIN MÜHAFIZƏSI

İ-1. Bu hissədə hava limanı istismarçısının hava limanı ərazisində və ətraflarında aşağıdakılar nöqteyi-nəzərindən ətraf mühitin mühafizəsi üzrə siyasətini və hərəkətlərini göstərmək lazımdır:

İ-1.1. aviasiya küyü; və

İ-1.2. aviasiya mühərriklərinin emissiyası.

İ-2. Hər bir hava limanında hava gəmisinin aşağıdakı hallarda ərazidə yaratdığı səs-küyün səviyyəsini ölçmək üçün xüsusi avadanlıq quraşdırılmalıdır:

İ-2.1. havaya qalxdıqda;

İ-2.2. yüksəklik yığdıqda;

İ-2.3. enməyə daxil olduqda.

İ-3. Hava gəmisinin hər bir tipi üçün ərazidə səs-küyün yolverilən səviyyələri hava gəmisinin tipinin UİT-də göstərilmişdir.

3.15 HİSSƏ "J" – SƏRNIŞINLƏRƏ, BAQAJA, YÜKLƏRƏ VƏ POÇTA XIDMƏT OLUNMASI

J-1.1. HLİT-in bu hissəsi hava limanının hava gəmilərinə, sərnişinlərə, baqaja, yüklərə və poçta yerüstü xidmət göstərən xidmətinin fəaliyyəti haqqında informasiyanı ehtiva etməlidir. Əgər göstərilən funksiyalar hava limanında hava limanının strukturuna daxil olmayan təşkilatla müqavilə və ya saziş üzrə həyata keçirilirsə, bu təşkilatın hüquq və səlahiyyətlərinin razılaşdırıldığı müqavilə və ya sazişin surətini əlavə etmək lazımdır.

J-1.2. Yerüstü xidmət bölməsinin Təlimatının nüsxəsi əlavə edilmişdir, hansı ki, hava gəmilərinə, sərnişinlərə, baqaja, yüklərə və poçta xidmət üzrə yerinə yetirilən funksiyaların siyahısını, xüsusilə aşağıdakıları əhatə etməlidir:

J-1.2.1. Nümayəndəlik funksiyaları (əgər olarsa);

J-1.2.2. Sərnişinlərə xidmət olunması;

J-1.2.3. Perron xidmətləri;

J-1.2.4. Yükləməyə nəzarət;

J-1.2.5. Yük və poçta xidmət olunması;

J-1.2.6. Yardımçı xidmətlər;

J-1.2.7. Mühafizə və təhlükəsizlik.

3.16 HİSSƏ "K" – TIBBI XIDMƏT

K-1. HLİT-in bu hissəsi aşağıdakı informasiyadan ibarət olmalıdır:

K-1.1. hava gəmilərinin heyətinin uçuşqabağı tibbi müayinə edilməsi haqqında;

K-1.2. ölkə ərazisində yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə sanitar tədbirlərinin görülməsi və fəlakət baş vermiş regionlardan hava limanına uçuş gələn hava gəmilərinin emalı ilə bağlı hava limanının səhiyyə xidmətinin hərəkətləri haqqında;

K-1.3. hava limanının tibbi-sanitar xidmətinin qəza hallar üçün Tədbirlərdə iştirakı haqqında.

3.17 HİSSƏ "Q" – HAVA LIMANI PERSONALININ HAZIRLIQ SIYASƏTI

Q-1. HLİT-in bu hissəsi aşağıdakılardan ibarət olmalıdır:

Q-1.1. hava limanının istismar və texniki xidmət spesifikası nəzərə alınmaqla, istismarçının işə götürülən əməkdaşların ixtisasına və təcrübəsinə qarşı tələbləri;

Q-1.2. əməkdaşların ixtisas səviyyəsinin yoxlanılması üzrə attestasiya sistemi haqqında informasiya;

Q-1.3. hava limanında inşaat işlərinin görülməsinə dair müqavilələrə onların təhlükəsizliyinə və icrasının təmin edilməsinə aid olan müddəaların daxil edilməsi ilə bağlı tələblər;

Q-1.4. personalın ixtisasının müvafiq kurslarda sistemli şəkildə yüksəldilməsinə dair proqram.